# Bolqarıstanın keçmiş Prezidenti Georgi Pırvanov Qəbələdə



Qəbələ Beynəlxalq Hava Limanında Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən qarşılanan qonağa rayonun tarixi, mədəniyyəti, iqtisadiyyatı, kənd təsərrüfatı, əhalinin məşğuliyyəti, son zamanlar rayonda aparılan geniş abadlıq və quruculuq işləri barədə ətraflı məlumat verilmişdir. Qeyd olunmuşdur ki, Qəbələ rayonu irimiqyaslı tədbirlərə ev sahibliyi edir. Rayonda sənaye müəssisələri ilə yanaşı turizm sektorunun inkişafı istiqamətində də mühüm işlər görülür.

Qəbələ rayonu ilə yaxından maraqlanan Georgi Pırvanov İlk öncə 14 avqust 2013-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən açılışı olmuş "Qafqaz Karvansaray" otel kompleksi, 1200 yerlik Heydər Əliyev Konqres Mərkəzi ilə tanış olmuşdur. Bildirilmişdir ki, Konqres Mərkəzi artıq ən mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilmişdir.

Xatırladaq ki, sonuncu səfərindən sonra rayonun simasında əsaslı dəyişiklik olduğunu vurğulayan Georgi Pırvanov artıq Qəbələnin böyük infrastruktura malik olduğunu qeyd etmiş, turizm sektoru üçün əlverişli təbiət məkanında yerləşən rayon bura gələn turistlərin geniş marağına səbəb olacağını bildirmişdir.

# Qabon Respublikasının nümayəndə heyəti Qəbələdə

Bakıda Afrikanın Qabon Respublikasının İqtisadiyyat, İş və Davamlı İnkişaf Nazirliyinin Gömrük və Vasitəli Vergilər Baş İdarəsinin baş direktoru Mişel Ondinqa Nquanquenin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində Qəbələdə olmuşdur.

Hörmətli qonaqları Qəbələdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev qarşılamışdır. Sonra qonaqlar rayonun gəzməli-görməli yerləri ilə tanış olmuş, istehsal müəssisələrinə, turizm obyektlərinə baxış keçirmişlər. Son 10 ildə Qəbələnin sürətli inkişafı, burada tikilən ən müasir turizm obyektləri bir sıra beynəlxalq tədbirlərin, elmi konfransların keçirilməsi üçün kifayət qədər potensial yaradılmışdır. Son illərdə keçirilən Beynəlxalq musiqi festivalları, digər incəsənət tədbirləri, dövlət başçıları ilə siyasi görüşlər, habelə digər tədbirlər bunu təsdiq edir. İndi Qəbələ belə tədbirlərə görə dünyanın bir çox ölkələrində tanınmaqdadır. Həmçinin qonaqlara məlumat verilmişdir ki, əhalinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıq və meyvəçilikdir.

Qonaqlar Azərbaycanın bu gözəl yurdu ilə tanışlıqdan çox məmnun qalmışlar.

# Rumıniyanın keçmiş Prezidenti Emil Konstantinesku Qəbələdə

III Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçısı, Rumıniyanın keçmiş Prezidenti Emil Konstantnesku Forum başa çatdıqdan sonra Qəbələyə gəlmişdir.



Qəbələ Beynəlxalq Hava Limanında rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən qarşılanan qonağa rayonun tarixi, mədəniyyəti, iqtisadiyyatı, kənd təsərrüfatı, rayonda aparılan geniş abadlıq və quruculuq işləri barədə ətraflı məlumat verilmişdir.

Hörmətli qonağa bildirilmişdir ki, rayonda turizm sektoru ilə yanaşı sənaye müəssisələrinin inkişafı da diqqət mərkəzində saxlanılır. Rayonda yeyinti məhsulları, süd emalı, konserv istehsalı gücü 10 min dkl olan şərab zavodu, tikinti materialları istehsalı müəssisələri, kərpic istehsalı zavodları, piano fabriki, meyvə-tərəvəz məhsullarının çeşidlənməsi və saxlanılması üçün 5 min tonluq soyuducu anbarlar inşa edilərək istifadəyə verilmişdir.

Qeyd olunmuşdur ki, bu gün Qəbələdə istehsal olunan məhsullar bir cox ölkələrə ixrac olunur.

Bildirilmişdir ki, rayonda 2003-2013-cü ilin doqquz ayı ərzində rayonda 9415 daimi olmaqla 11463 yeni iş yeri yaradılmışdır. Bütün bunlarla yanaşı rayonun geniş turizm potensialı olduğu bildirilmiş, 7 otel və 9 istirahət kompleksinin fəaliyyət göstərdiyi qeyd olunmuşdur.

Qəbələ rayonu ilə tanışlıqdan məmnunluğunu ifadə edən Emil Konstantinesku rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində aparılan geniş quruculuq işlərinə uğurlar arzulamışdır.

# III Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçıları Qəbələ rayonunda səfərdə olmuşlar

III Bakı Beynəlxalq Humanitar Forumunun bir qrup iştirakçısı Qəbələdə səfərdə olmuşdur. Hörmətli qonaqları Qəbələ Beynəlxalq Hava Limanında rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev qarşılanmışdır. Sonra forumun iştirakçıları rayonun sosial-iqtisadi inkişafı, gəzməli-görməli yerləri ilə tanış edilmişlər. Qeyd olunmuşdir ki, Qəbələ rayonu son illərdə artıq irimiqyaslı regional və beynəlxalq tədbirlərə ev sahibliyi edir. Rayonda sənaye müəssisələri ilə yanaşı turizm sektorunun inkişafı istiqamətində də mühüm işlər görülür.



Qəbələ rayonu ilə yaxından maraqlanan qonaqlar ilk öncə "Gilan piano" MMC-nin "Beltmann" piano fabriki, rayon tarix-diyarşünaslıq muzeyi, vaxtilə Qafqaz Albaniyasının paytaxtı olmuş qədim Qəbələ şəhərinin xarabalıqları ilə tanış edilmişlər. Qonaqlar daha sonra "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzi, beşulduzlu "Qafqaz Riverside", "Qafqaz Resort", "Qafqaz Sport", "Qafqaz Karvansaray" otelləri ilə tanış edilmişlər.

Qəbələ ilə tanışlıq, rayonda aparılan tikinti-quruculuq və abadlıq işləri forum iştirakçılarında zəngin təəssürat yaratmışdır. Qonaqlar Azərbaycanın dünyada turizm ölkəsi kimi tanınması üçün zəngin potensiala malik olduğunu və bu istiqamətdə böyük işlər görüldüyünü qeyd etmiş, ölkəmizin sosial-iqtisadi inkişafının, bölgələrdə müasir texnologiyaya əsaslanan infrastrukturun, sürətlə inkişaf edən turizm sektorunun iqtisadiyyatımıza verəcəyi töhfələri yüksək qiymətləndirmiş və Qəbələyə səfərlərindən məmnunluqlarını ifadə etmişlər.

**Səhifədəki fotolar Səhrab Umuyevindir.**